

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 72 (23.234)

19 aprel 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, ötən ilin martından parkda yenidənqurma işlərinə başlanılıb. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində mədəniyyət və istirahət parkı yaradılıb. Digər 2 hektarlıq sahədə isə meşə zolağı salınıb və velosiped yolları çəkilib, işıqlandırma işləri görülüb. Bu istirahət məkanında "IDEA" İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman və futbol meydançaları salınıb, trenajorlar quraşdırılıb, uşaq və yeniyetmələrin əyləncəsi, asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif attraksionlar və oyun elementləri yerləşdirilib.

Dövlətimizin başçısı və birinci xanım burada istirahət edən sakinlərlə görüşüb söhbət ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Reza Rəhmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Ərtoğrol Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Görkəmli mütəfəkkir-şair Hüseyn Cavidin ailəsində anadan olan, Azərbaycan mədəniyyətinin dəyərli simalarından biri kimi zəngin irs yaradan, musiqişünas, rəssam və tədqiqatçı Ərtoğrol Cavidin (Ərtoğrol Cavid oğlu Rasizadə) 2019-cu il oktyabrın 22-də anadan olmasının 100 illiyi tamam olur.

Ali təhsilini Azərbaycan Pedaqoji İnstitutunda alan Ərtoğrol Cavid daha sonra musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəyovun sinfində almış, eyni zamanda Konservatoriya nəzdindəki musiqi məktəbində dərs demiş, gənc tədqiqatçı kimi musiqi folkloru nümunələrinin toplanması və tədqiqində iştirak etmişdir.

Ərtoğrol Cavid milli musiqi mədəniyyətimizin yeni yaradıcılıq nümunələri ilə zənginləşdirilməsində böyük rol oynamışdır. O, "9 Variasiya", skripka ilə fortepiano üçün "Poema", "Leylanın vəsfi" kimi romanslar, müharibə mövzusunda simfonik ballada və marşlar yaratmışdır.

Çoxcəhətli yaradıcılıq yolu keçən Ərtoğrol Cavid, eyni zamanda rəssamlığın müxtəlif janrlarına da müraciət edərək özündən sonra yaddaqalan sənət nümunələri qoyub getmişdir. Ərtoğrol Cavid bədii yaradıcılıqla da məşğul olmuş, pyes və şeirləri dövrümüzədək gəlib çatmışdır. Yaradıcılığı "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" adlı 13 cildlik külliyyatda toplanmışdır.

Yaşadığı qısa müddətdə onun ədəbi-bədii, musiqi və boyakarlıq sənətinin inkişafındakı rolunu, Azərbaycan xalq mahnıları və folklorunun toplanması və tədqiqi sahəsindəki əvəzsiz xidmətlərini nəzərə alıb Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ərtoğrol Cavidin 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilsin.
2. "Ərtoğrol Cavidin 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 aprel 2019-cu il*

## Naxçıvan Hərbi Qarnizonunun Təlim-Tədris Mərkəzində komanda-qərargah təlimləri keçirilir



Aprelin 18-də Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının uzlaşdırılmış plan üzrə kompüter dəstəkli komanda-qərargah təlimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təlimi izləmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün alınmış xidməti avtomobillərə baxış olmuşdur. Qeyd olunmuşdur ki, hərbi hissələr müasir döyüş texnikaları ilə yanaşı, həm də xidməti avtomobillərlə təmin olunur. Yeni alınmış 10 ədəd "NİVA" markalı xidməti avtomobil hərbi hissələrin komandir və rəis heyətinin istifadəsinə veriləcəkdir.

Sonra təlim başlamışdır.

Məlumat verilmişdir ki, Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının hücum əməliyyatlarının qarşılıqlı əlaqəsini koordinasiya etmək, döyüşə və səfərbərliyə hazırolma səviyyəsini artırmaq məqsədi ilə yaradılmış Təlim-Tədris Mərkəzinin Simulyasiya Mərkəzi 81 kompüterdən, ümumilikdə isə 20 otaqdan və təlim nəticələrinin təhlil edilməsi üçün 90 yerlik zaldan ibarətdir. Simulyasiya Mərkəzinin əsas üstünlüyü burada birtərəfli təlimlərlə yanaşı, ikitərəfli üçpilləli təlimlərin də keçirilməsi, bölük, tabor və briqada səviyyəsində real vaxt rejimində fəaliyyət göstərməsidir. Kompüter dəstəkli komanda-qərargah təlimlərinin keçirilməsinin əsas məqsədi komandir və qərargah zabitlərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, eləcə də onların əməliyyatın planlaşdırılması və vəziyyətin qiymətləndirilməsi üzrə bacarıqlarının inkişaf etdirilməsindən ibarətdir.

"Sakarya" və "Qasırğa" yaylım atəşli reaktiv sistemlərin simulyasiya sinfi avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz olunmuşdur. Tədris sinfi 6 döyüş maşınından, batareya komandirinin idarəetmə maşınından, meteo-maşını simulyasiya edən kompüterdən, məşğələ rəhbərinin iş yerinin kompüterindən və şəbəkə mərkəzindən ibarətdir. Burada divizion və batareya tərkibində atəş hazırlıqlarının hazırlanması və döyüş maşınlarının avtomatik olaraq hədəfə tuşlanması şəxsi heyətə öyrədilir.

Döyüş və piyada döyüş maşınları "BMP2" və "BMP3", "T72" və "T90" trenajorlarda idarə edilmiş və müxtəlif döyüş tapşırıqları yerinə yetirilmişdir. Tank əleyhinə bölmələr üçün nəzərdə tutulan "SPİKE-LR" və "SPİKE-ER" daxili otaq trenajorları operator və təlimatçı stansiyaları olmaqla, 2 hissədən ibarətdir. Bu da məşğələ zamanı təlimatçıya bütün atəş ardıcıllığını izləməyə, atışdan əvvəl və sonra ərazi görüntüsünü müşahidə etməyə imkan verir. Həmçinin kompüterdə döyüş sahəsinin simulyasiya olunmuş görüntüsü əks olunur.

Qeyd olunmuşdur ki, tank əleyhinə məşq qurğuları döyüş sahəsinin simulyasiya olunmuş görüntüsündə hərəkətsiz və hərəkət edən hədəflərə döyüş raketlərindən istifadə etmədən atəş tapşırıqlarının yerinə yetirilməsini təmin edir. Eyni zamanda atəş tapşırıqları yerinə yetirilərkən hədəfi izləməyə imkan yaradır, fərdi və manqa tərkibində tapşırığın yerinə yetirilməsi qiymətləndirir. Kompüterli artilleriya sinfində divizion və batareya tərkibində sutkanın işıqlı və qaranlıq vaxtında döyüş sursatı sərf etmədən atəş tapşırıqları icra edilmişdir. Artilleriyanın taktika sinfində isə zabit heyəti ilə sinif şəraitində taktiki məşğələlər keçirilmiş, taktiki qrup çalışmaları yerinə yetirilmiş, taktiki və komanda-qərargah təlimlərinin keçirilməsindən əvvəl zabitlərin hazırlanması və taktiki hazırlıqdan məqbulların qəbul edilməsi prosesi həyata keçirilmişdir.



Kompüterlə və digər avadanlıqlarla təmin olunmuş "Qvozdika" simulyasiya sinfində avtomatlaşdırılmış idarəetmə sistemi ilə divizion və batareya tərkibində hədəf göstəriciləri müəyyən edilmişdir. Tibbi hazırlıq, avtomobil texnikası, zirehli texnikaların idarə edilməsi, raket artilleriya silahları, qarovul, kəşfiyyat, hərbi topoqrafiya, kütləvi qırğın silahlarından mühafizə, rabitə, mühəndis və hava hücumundan müdafiə siniflərində də müvafiq sahələr üzrə məşğələlər keçirilmişdir. Xüsusi proqramla təchiz edilmiş əsas və arxa komanda məntəqələri, artilleriya qruplaşması, təminedici bölmələr, bölük komandirləri və tabor qərargahları siniflərində keçirilən ikitərəfli təlimlərdə də məqsədə nail olunmuşdur. Naxçıvan Qarnizonu Qoşunlarının uzlaşdırılmış kompüter dəstəkli komanda-qərargah təliminin nəticələri hakimlər qrupu tərəfindən dəyərləndirilmiş, toplanan məlumatlar və əldə olunmuş nəticələr təhlil edilmişdir.

Qarnizonda yerləşən birləşmə və hissələrin xidməti sənədləri və tədris üçün əyani vəsaitlər

Ardı 2-ci səhifədə





hərbi mətbəədə hazırlanır. Bu günə qədər birləşmə və hissələr üçün 10 mindən artıq xidməti istifadə üçün kitab və jurnal hazırlanmışdır. Təlim-Tədris Mərkəzinin zəngin kitabxanası vardır. Bildirilmişdir ki, hazırda kitabxanada 18 min müxtəlif ədəbiyyat şəxsi heyətin istifadəsinə verilib.

Ali Məclisin Sədri nəzəri dərslərin real ərazi maketləri üzərində keçirilməsi, uzlaşmış



təlim və məşğələlərin nəticələrinin qarşılıqlı təhlil və müzakirə olunması barədə tapşırıqlar vermişdir.

Sonra “Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı” üzrə görülən işlərin nəticələrinə həsr olunmuş müşavirə keçirilmişdir.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək demişdir ki, “Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı”na əsasən birinci tədris rübündə əsas səylər motoatıcı, tank, artilleriya, xüsusi təyinatlı və hava hücumundan müdafiə bölmələrinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə, eləcə də hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərə yönəldilmişdir. Təlim və məşğələlərdə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin hərbi qulluqçuları ilə yanaşı, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası, “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının hərbi qulluqçuları da iştirak etmişlər. 2019-cu ilin birinci rübündə 8-i ərazidə, 8-i isə kompüter dəstəkli olmaqla, 16 briqada komanda-qərargah təlimi, 3 komanda-qərargah səfərbərlik təlimi, 2 qərargah məşqi, idarəetmə məntəqələrinin açılması üzrə komanda-qərargah məşqi, təyyarə və vertolyotların 50 saatdan artıq təlim-məşq və xüsusi tapşırıq uçuşu keçirilmişdir.

Qeyd olunmuşdur ki, tədris rübündə müxtəlif ixtisaslar üzrə 1955 müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlanmışdır. Hazırda “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursu”nda 309 kursant, “Gizir hazırlığı kursu”nda isə 82 kursant təhsil alır. Rüb ərzində qarnizonun birləşmə, hissə və bölmələrinin cəlb edilməsi ilə müxtəlif ixtisaslar üzrə 20 yarış, 12 müsabiqə keçirilmişdir. Silah və texnikaların təmiri, texniki qulluq, şəxsi heyətin tibbi müayinəsi və qidalanması da diqqətdə saxlanılmışdır. Kərəm Mustafayev yaradılan şəraitə və göstərilən dəstəyə görə Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının şəxsi heyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə Naxçıvanın müdafiə potensialının və hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaranmışdır. Ötən il Əlahiddə Ümumqoşun Ordu tərəfindən həyata keçirilən uğurlu Günnüt əməliyyatı bunu bir daha təsdiq etdi. Ölkəmizin müharibə, muxtar respublikanın isə həm də blokada şəraitində olması və düşmən ölkə ilə sərhəddə yerləşməsi Naxçıvanda digər qoşun növlərinin – “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının, “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının yaradılmasını da zərurətə çevirmişdir. Əlahiddə Ümumqoşun Ordunun, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının, “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının bir qarnizonda birləşməsi



isə qarşılıqlı döyüş fəaliyyətinin təşkilində mühüm əhəmiyyət kəsb edirdi. Bu məqsədlə “Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı”nın təsdiq olunması, keçirilən birgə təlimlər və qarşılıqlı fəaliyyət məmnunluq doğurur.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Hərbi Qarnizonu Qoşunları üçün müasir Təlim-Tədris Mərkəzinin yaradılması, təlim və məşğələlərin uğurla keçirilməsi muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin davamıdır. Ötən il Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təliminin, bu gün isə kompüter dəstəkli komanda-qərargah təliminin keçirilməsi birgə fəaliyyətin nəticəsidir. Bundan sonra da Uzlaşma Planına uyğun olaraq birgə təlimlər keçirilməli, qarşılıqlı fəaliyyət təmin olunmalıdır.

Qeyd olunmuşdur ki, muxtar respublikadakı ordu, birləşmə və hissələr hər il müasir silah və texnikalarla təmin olunur. Bu da mütəxəssis hazırlığını zəruri edir. Ona görə də muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər sırasında kadr hazırlığına xüsusi diqqət yetirilir. Hazırda Əlahiddə Ümumqoşun Orduda zabit, gizir və müddətdən artıq hərbi qulluqçular hazırlanır. Nəticədə, mürəkkəb reaktiv qurğuları və digər döyüş texnikalarını idarə edən şəxsi heyət formalaşmışdır. Təlim-Tədris Mərkəzində yaradılan şərait bu sahədə işlərin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin Sədri “Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı” üzrə tapşırıqların uğurla yerinə yetirildiyinə görə Naxçıvan Hərbi Qarnizonu qoşunlarının şəxsi heyətinə təşəkkür etmişdir.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov “Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı”nın xidmətin uğurlu həyata keçirilməsinə və birgə fəaliyyətin təşkilinə mühüm töhfə verdiyini bildirmiş, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə şəxsi heyət adından minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Yeni vəzifəyə təyin olunmuş dövlət qulluqçularının andiçmə mərasimi keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 noyabr 2018-ci il tarixdə elan olunmuş müsabiqədə müvəffəqiyyət qazanan dövlət qulluqçularının dünən Dövlət Bayrağı Muzeyində təntənəli andiçmə mərasimi keçirilib.*

Tədbirdə komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsi də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqəti və qayğısı ilə əhatə olunub. Ali Məclis Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması muxtar respublikada məşğulluq strategiyasının həyata keçirilməsinə öz müsbət töhfəsini verib. Belə ki, komissiya tərəfindən 2011-ci ildən bu günədək keçirilmiş 17 müsabiqədə 5529 namizəd iştirak edib, onlardan 1144-ü müsabiqəni müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunub.



Muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının 39,6 faizi komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanıb, müasir dünyagörüşə, qanunvericilik və informasiya texnologiyaları üzrə biliklərə, habelə məntiqi düşüncə qabiliyyətinə malik olan dövlət qulluqçusudur.

Bildirilib ki, daxili işlər, ədliyyə, fövqəladə hallar, vergi, gömrük, miqrasiya və prokurorluq orqanlarında xidmətə qəbul üçün elan edilmiş 38 müsabiqədə 1730 nəfərin iştirakı qeydə alınıb.

Dövlət qulluğunun səmərəli təşkili və idarə olunması məsələlərindən danışan İsmayıl Qəribli diqqətə çatdırıb ki, bu gün muxtar respublikada vətəndaşların dövlət qulluğuna, o cümlədən dövlət qulluğunun xüsusi növünə aid orqanlara müsabiqə və şəffaflıq əsasında işə qəbulu üçün hər cür şərait yaradılıb.

Sonra müsabiqəni uğurla başa vurmuş və dövlət orqanlarında yeni vəzifələrə təyin olunmuş namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun şəkildə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə təntənəli surətdə and içiblər.

Komissiyanın sədri dövlət qulluqçularının anda sadiq qalacaqlarına, ümummilli liderimiz Heydər Əliyevin ideyalarına, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət edəcəklərinə, onlara göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Andın mətnini imzalayan dövlət qulluqçularına andiçmə vərəqələri təqdim edilib, xatirə şəkli çəkdirilib.

Sonra mərasim iştirakçıları Dövlət Bayrağı Muzeyi ilə tanış olublar.

Xatırladaq ki, müsabiqəyə 305 vakant vəzifə çıxarılmış, həmin vəzifələrin tutulması üçün 583 sənəd təqdim olunmuşdu. Müsabiqənin test imtahanları mərhələsində 570 namizəd iştirak edib, 257 namizəd keçid balını toplaya bilib. Test imtahanında və müsahibə mərhələsində müvəffəqiyyət qazanmış namizədlərdən 99-u vakant vəzifələrə təyin edilib. Onlardan ilk dəfə dövlət qulluğuna qəbul olunmuş 88 nəfər andiçmə mərasimində iştirak edib.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri yanında**
**Dövlət Qulluğu Məsələləri üzrə**
**Komissiyanın mətbuat xidməti**

## Startapların hazırlanması və tətbiqi məsələləri müzakirə olunub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı “Şərq qapısı” qəzetinin redaksiyasında Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülmüş Jurnalistika ixtisası tələbələri ilə birgə startapların hazırlanması və tətbiqi məsələləri müzakirə olunub.*





Qəzet əməkdaşlarının və Naxçıvan Mətbuat Şurası üzvlərinin, digər qəzet redaktorlarının iştirakı ilə keçirilən tədbiri “Şərq qapısı” qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultan açıb. Baş redaktor Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının muxtar respublikada müasir təfəkkürlü və peşəkar mütəxəssis hazırlığı, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılması, yaradıcı düşüncənin inkişaf etdirilməsi baxımından əhəmiyyətindən danışıb. Qeyd olunub ki, aprelin 15-də keçirilən müşavirədə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin (startapların) həyata keçirilməsi, hami təşkilatlar tərəfindən layihələri dəyərləndirəcək ekspert qrupların və ictimai əsaslarla fəaliyyət göstərəcək mərkəzlərin yaradılması, startapların qəbulunu və təqdimatlarının keçirilməsini təmin etmək kimi mühüm vəzifələr qoyulub. Ali Məclisin Sədri həmin müşavirədəki çıxışında deyib: ***“Startap Naxçıvan” hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır”.***

Mehriban Sultan “Şərq qapısı” qəzetinin hami təşkilat kimi həyata keçirdiyi tədbirlərdən, son iki ildə Jurnalistika ixtisasının 3 məzununun redaksiyada işlə təmin edilməsindən, jurnalist tələbələrdən Qızbəsti Sultan, Nardanə Əliyeva, Məmməd Qurbanlı və Mahsun Bədəlovun qəzetlə fəal əməkdaşlığa cəlb olunmasından danışıb. Qeyd olunub ki, müvafiq sərəncamın icrası, tələbələrin jurnalistika sahəsindəki fəallığını artırmaq, mətbuat qurumları ilə yaradıcılıq əlaqələrini gücləndirmək, mətbuatda onların çıxışlarını müntəzəm təmin etmək məqsədilə “Şərq qapısı”nda yeni “Estafet” rubrikası yaradılıb.

Çıxışda tələbələrlə əməkdaşlığın inkişaf etdirilməsi, onların müvafiq şöbələrə təhkim olunaraq ideya, mövzu, yaradıcılıq baxımından istiqamətləndirilməsi, “Auditoriyadan redaksiyaya!” devizi ilə hər ay qəzetin bir nömrəsinin startapçı tələbələr tərəfindən nəşrə hazırlanmasının təşkili və digər yeni startap layihələrin həyata keçirilməsi ilə bağlı fikirlər səsləndirilib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında jurnalist tələbələrin Mətbuat Şurası, muxtar respublikanın digər mətbuat orqanları ilə müntəzəm əməkdaşlığa cəlb olunmasının, onların diyarımızla bağlı materialların sosial şəbəkələr vasitəsilə təbliğində fəallaşmalarının zəruriliyini vurğulayıb.

“Şərq qapısı” qəzetinin baş redaktor müavini, startap üzrə ekspert Rauf Kəngərli müvafiq sərəncamın jurnalistika sahəsində təşəbbüskar və yaradıcı potensiala malik gənclərin üzə çıxarılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib, startapların hazırlanması və qiymətləndirilməsi haqqında məlumat verib.

Jurnalistika və kitabxanaçılıq kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva muxtar respublikada Jurnalistika ixtisası üzrə ali təhsilli mütəxəssis hazırlığı, həmin kadrların müvafiq işlə təmin olunması üçün yaradılan şəraitdən, hami təşkilat olan “Şərq qapısı” ilə birgə kadr hazırlığı istiqamətində görülən işlərdən, mütərəqqi düşüncəli, yenilikçi, ideyaverici jurnalist gənclərin yetişdirilməsi istiqamətində qarşıda duran vəzifələrdən danışıb.

Tədbir diskussiya şəklində davam etdirilib, tələbələrin sualları cavablandırılıb, təkliflər dəyərləndirilib.

Tələbələr “Şərq qapısı” qəzetinin iş prosesi ilə maraqlanıb, redakta, növbəti nömrənin tərtibatı, fotojurnalistika işini əyani şəkildə izləyiblər.

**Etibar DƏRBƏNDƏLİYEV**
**Məhluqə RZALI**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının startapçı tələbələri***

## Yeni layihə tərəfdaşları Naxçıvanın tarixi zənginliyi qədər gənc potensialının da olduğunu vurğulayıblar

*Xəbər verdiyimiz kimi, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti aprelin 16-17-də Naxçıvan Muxtar Respublikasında səfərdə olublar. Qonaqlar “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Kətə” festivalında, Naxçıvan Biznes Mərkəzində Avropa İttifaqının maliyyələşdirdiyi “Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsinin açılış konfransında, Şahbuz rayonunun Kükü və Ağbulaq kəndlərində turist qəbul edəcək hostellərin təqdimatında iştirak edib, Naxçıvan Dövlət Universitetində olublar. Qonaqlar “Şərq qapısı” qəzetinə müsahibələrində səfərin məqsədi və təəssüratları barədə danışıblar:*

***Kestutis YANKAUSKAS:*** – Bu, mənim Naxçıvana dördüncü səfərimdir. Ötən il “Avropa günləri”ndə də Naxçıvana gəlmişdim. Bu dəfə keçirilən “Kətə” festivalı, Naxçıvanın gəncliyi məndə dərin təəssürat yaratdı. Düşünürəm ki, bu torpağın tarixi zənginliyi qədər gənc potensialı da vardır. Odur ki, Naxçıvanda hər hansı bir yeni layihə üçün də geniş imkanlar olduğunu deyə bilərəm. Bu layihəmiz isə çox ciddi məzmunludur. Xüsusən qadınlar arasında yeni ideya sahibi olub, bizneslə məşğul olmaq istəyənlərə dəstək göstərmək, onların özünü təsdiqetmə qabiliyyətini üzə çıxarmaq baxımından bu layihənin əhəmiyyəti böyükdür. Çünki qadınlar əhalinin sayca əsas hissəsini təşkil etməklə, həm də cəmiyyətin aparıcı qüvvəsi olma imkanına malikdir. Onlar digər sahələrdə olduğu kimi, biznesdə və menecmentdə də özlərini sübut etməyə çalışırlar. Bunun üçün bizim layihə tərəfdaşlarımız onlara necə başlamaq haqqında lazımi köməklik göstərəcək.



Biz müxtəlif yerlərdə, ucqar dağ kəndlərində olduq, əhali ilə görüşdük, buradakı iş və yeni biznes imkanları ilə maraqlandıq. Gəldiyimiz nəticə isə o oldu ki, Azərbaycan neft ölkəsi olmaqla yanaşı, həm də kiçik biznesin inkişafı üçün ideal məkandır.

***Alessandro FRAKASSETTİ:*** – Bu, mənim Naxçıvana ilk səfərimdir. Burada istehsal olunan çox sayda yerli məhsullar, ailə təsərrüfatları mənim diqqətimi çəkdi. Qadınların səlahiyyətləndirilməsi üzrə başladığımız layihənin uğuruna çox ümid edirik. Biznes qurmaq istəyən qadınların maliyyə savadlılığının artırılması istiqamətində görülən işlər öz bəhrəsini verəcək. Bu sahədə qazandığımız təcrübənin Naxçıvanda da tətbiq olunması üçün yaxşı imkanlar vardır. Burada bizə verilən dəstək və eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən qadınlar üçün yaradılan şərait bunu deməyə əsas verir. Xüsusən Naxçıvanın dağ kəndlərində turizmlə məşğul olmaq istəyən və bunun üçün müəyyən təcrübəsi olanlara layihənin fayda verəcəyinə inanıram.



**✍ Əli CABBAROV**

## Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı tədbir



*Aprelin 18-də Qarabağlar Türbə Kompleksində Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd edilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, 1982-ci ildən etibarən YUNESKO-nun Abidələrin Mühafizəsi Məsələləri üzrə Beynəlxalq Şurasının qərarı ilə hər il aprelin 18-i dünyada “Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü” kimi qeyd olunur.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Son 23 ildə 70-dən artıq tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamı ilə muxtar respublika ərazisində olan 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılıb.

Nazir çıxışının sonunda qədim diyarımızda mədəniyyətə və incəsənətə göstərilən böyük dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə tədbir iştirakçıları adından dərin minnətdarlığını bildirib.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Fəxrəddin Səfərli “Azərbaycan memarlığının möhtəşəm nümunəsi Qarabağlar Türbə Kompleksi” mövzusunda çıxış edərək bildirib ki, XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksi Naxçıvan ərazisində yaradılan türk-islam mədəniyyətinin möhtəşəm nümunələrindən və Şərq memarlığının incilərindən biridir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 iyul tarixli Sərəncamına əsasən bu türbə bərpa edilib, abidəyə ikinci həyat verilib.

Tədbirdə uşaq incəsənət və bədii sənətkarlıq məktəblərinin rəsm ixtisası üzrə şagirdləri arasında etüd dərs keçilib və fərqlənənlərə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin fəxri fərmanları təqdim olunub.

Tədbir iştirakçıları burada təşkil edilmiş qədim diyarımızın ərazisində olan abidələrlə bağlı nəşr olunmuş kitablardan, çap məhsullarından, rəsm əsərlərindən ibarət sərgiyə maraqla baxıblar.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Muğam studiyasının və “Şərur” Xalq Yallı Ansamblının konserti olub.

**Əli RZAYEV**

## “Sosial Könüllülük Akademiyası”nın təqdimatı və “İdeyadan başlanğıca” layihəsi çərçivəsində tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Gənclər Mərkəzində “Sosial Könüllülük Akademiyası”nın təqdimatı və “İdeyadan başlanğıca” layihəsi çərçivəsində Sosial iş ixtisası üzrə təhsil alan tələbələrin maarifləndirilməsi məqsədilə tədbir keçirilib.*



Əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Dövlət Universitetinin Fəlsəfə və sosial iş ixtisası kafedrasının müdiri Abbas Əhmədov çıxış edərək tədbirin əhəmiyyətindən danışıblar. Vurğulanıb ki, layihənin həyata keçirilməsində əsas məqsəd könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətinin təşviqi, bu prosesə gənclərin qoşulmasının təmin edilməsi, sosial sahədə çalışacaq könüllülərin yetişdirilməsi və gələcəkdə onların dövlət qurumlarında işlə təmin olunmasından ibarətdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamında və aprelin 15-də “Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə” keçirilmiş müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə əmək bazarının tələblərinə uyğun kadr hazırlığı işinə nəzarətin artırılması, sosial layihələrin həyata keçirilməsinin davam etdirilməsi barədə tapşırıqlar verilib. Bununla əlaqədar “İdeyadan başlanğıca” layihəsi çərçivəsində Sosial iş ixtisası üzrə təhsil alan tələbələrə layihələrin işlənib hazırlanması, əsaslandırılması və təqdim edilməsi sahəsində istiqamətlərin verilməsi diqqət mərkəzində saxlanılıb.

Tədbirdə mövzu ilə bağlı videoçarx nümayiş etdirilib və mərkəzdə əlilliyi olan şəxslərin, ahılların rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

Sonra “İdeyadan başlanğıca” layihəsi çərçivəsində təlimlərə start verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri və nazirlik üzrə ekspert qrupunun rəhbəri Əziz Hümbətov çıxış edərək hamiliklə bağlı görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Bildirib ki, verilmiş tapşırıqların icrası yeni ideya mübadiləsinə və innovasiyaların yaranmasına gətirib çıxaracaq. Bu da “Startap Naxçıvan” hərəkatına öz töhfəsini verəcəkdir. Muxtar respublikada investisiya mühiti yaxşılaşacaq, yaradıcı düşüncəyə və inkişafa xidmət edən layihələr aşkar ediləcək, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tələbələr tədqiqat işlərində iştirak ediblər

“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar tədbirlər davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Ekologiya mühəndisliyi ixtisasının III kurs və Geologiya mühəndisliyi ixtisasının I kurs tələbələri Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin mütəxəssisləri tərəfindən aparılan mühəndis-hidrogeoloji tədqiqat işlərində iştirak ediblər.

Naxçıvan şəhərində tikinti işi aparılacaq ərazidə müəyyən edilən dərinlikdə süxurların müşahidə edilməsi və laborator tədqiqi məqsədilə 15 metr dərinlikdə tədqiqat quyuları qazılıb. Həmin dərinlikdə süxurlardan götürülən nümunələrin fiziki-mexaniki xüsusiyyətləri öyrənilərək coğrafi ərazi haqqında ekoloji rəy hazırlanacaq. Tələbələr aparılan işlərlə praktik tanış olub və nəzəri məlumat alıblar. Onlarla startapla bağlı maarifləndirici dialoq da aparılıb.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi 2019-cu ilin ilk üç ayında fəaliyyətini illik iş planının və dövlət proqramlarının icrası istiqamətində qurub.*

## Aqrar sahədə maarifləndirmə işləri davam etdirilir

Belə ki, ailə təsərrüfatlarının inkişafı üzrə təsdiq edilmiş tədbirlər planında qarşıya qoyulmuş vəzifələrin icrası diqqətdə saxlanılıb, payızlıq taxıl əkinlərinə yemləmə gübrəsinin verilməsinin əhəmiyyəti mövzusunda tədbirlər keçirilib. Ötən dövrdə torpaq mülkiyyətçilərinin müraciəti əsasında meyvə bağlarında quru budama, zərərverici və xəstəliklərə qarşı mübarizə, 6 hektar yeni salınmış üzümçülük, 0,4 hektar meyvə-tərəvəz parniki, 3,9 hektar istixana təsərrüfatı sahələrində kompleks becərmə tədbirlərinin aparılmasına dair hüquqi və fiziki şəxslərə məsləhətlər verilib, tarla-seminar müşavirələri keçirilib.

"Araz" Elm-İstehsalat Birliyi tərəfindən torpaq tədqiqatı işləri davam etdirilib. Belə ki, Şərur, Babək, Kəngərli rayonlarının kəndlərindən torpaq nümunələri götürülüb, torpağın qida maddələri ilə təminolunma kartoqramları hazırlanaraq kənd bələdiyyələrinə təqdim edilib, torpaqdan istifadə qaydaları haqqında məlumat verilib. Tərtib olunmuş əkin atlaslarından səmərəli istifadə etməklə növbəli əkinlərin tətbiqinin əhəmiyyəti, məhsuldar toxum sortlarından istifadə etməklə yüksək məhsuldarlığa nail olunması yolları mövzularında torpaq mülkiyyətçiləri ilə maarifləndirici söhbətlər aparılıb. Həmçinin müasir texnologiyaların imkanlarından səmərəli istifadə olunması və əkin zamanı çətinliklərin yaranmaması üçün texnika sahiblərinə məsləhətlər verilib.

İri arıçılıq təsərrüfatlarının sahibkarları ilə "Arı ailələrinin köçürülməsinin əhəmiyyəti" və "Yaz mövsümündə arılara qulluq" mövzularında müşavirələr keçirilib. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində süni mayalandırma işlərinin aparılmasının əhəmiyyəti, zoobaytar qaydalarına uyğun yemləndirilməsi, döl kampaniyasının mütəşəkkil keçirilməsi ilə bağlı maarifləndirmə işləri davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Dövlət qulluqçuları arasında *"Xəmsə"* milli intellektual oyunu



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar dövlət qulluqçuları arasında "Xəmsə" milli intellektual oyunu üzrə "Heydər Əliyev kuboku"nun ilk seçim mərhələsi keçirilib.

Naxçıvan şəhərində fəaliyyət göstərən dövlət təşkilatlarından 16 komandanın iştirak etdiyi oyun 2 seçim və final mərhələlərindən ibarətdir. İlk seçim mərhələsində "Araz" (Dövlət Nəqliyyat Xidməti), "Zirvə" (Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi), "Kəhrəba" (Kənd Təsərrüfatı Nazirliyi), "Günnüt" (Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi), "Təhsil" (Təhsil Nazirliyi), "Qarabağlar" (Dövlət Baş Sığorta Agentliyi), "Rifah" (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi), "Mübariz" (Səhiyyə Nazirliyi) komandaları mübarizə aparıblar. İki yarımfinal mərhələsində keçirilən oyun "Bəlli", "Şərtli", "Sirli", "Fərdi" və "Xəmsə" raundlarından ibarət olub.

"Kəhrəba", "Araz", "Təhsil", "Qarabağlar" komandaları final mərhələsində qalibiyyət uğrunda mübarizə aparacaqlar.

Oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Qeyd edək ki, oyunun ikinci seçim mərhələsi aprel ayının 24-də, final mərhələsi isə may ayının 7-də olacaq.

## Babək rayon komandası Azərbaycan çempionatına vəsiqə qazanıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə Atıcılıq Mərkəzində "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə muxtar respublika çempionatı keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar olaraq Gənclər və İdman Nazirliyi tərəfindən hamiliyə götürülmüş Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman, Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisaslarında təhsil alan tələbələrin hazırlıq səviyyəsinin artırılması, onlara vətənpərvərlik ruhunun aşılanması məqsədilə yarışda iştirakları təmin edilib.

Birincilikdə 8 komandada 5 çağırışçı gənc olmaqla, 40 nəfər iştirak edib. Yarış poliatlon beşnövçülük proqramı üzrə 100 metr məsafəyə qaçış, pnevmatik tüfəngdən 10 metr məsafəyə atış, 50 metr məsafəyə sərbəst üsulla üzmək, turnikdə dartınmaq və 2000 metr məsafəyə kross qaçışı üzrə təşkil olunub.

Gərgin mübarizə şəraitində keçən yarışda Babək rayon komandası birinci olub. Digər iki pillədə Kəngərli və Ordubad rayon komandaları qərarlaşıblar.

Qaliblər və yarışda fərqlənən digər idmançılara təşkilatçılar tərəfindən diplom, kubok və fəxri fərmanlar verilib.

Qeyd edək ki, 24-29 aprel tarixlərdə Göygöl rayonunda keçiriləcək Azərbaycan çempionatında muxtar respublikamızı Babək rayon komandası təmsil edəcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Kütləvi profilaktik müayinələr aparılır

"Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan dərin tibbi yoxlamalar aparılır.

Dünən keçirilən növbəti dispanserizasiya tədbirində Ordubad şəhər 3 nömrəli tam orta məktəbin şagirdləri kütləvi profilaktik müayinələrlə əhatə olunublar.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının pediatr, stomatoloq, kardioloq, cərrah-ortoped, LOR, nevropatoloq və digər ixtisaslı həkimlərdən ibarət briqadası məktəbin 587 şagirdini müayinədən keçirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Yüngül atletika birinciliyi keçirilib

Naxçıvan Muxtar Respublika Stadionunda "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin oğlan atletləri arasında yüngül atletika birinciliyi keçirilib.



Naxçıvan Şəhər Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsi və Uşaq-gənclər idman məktəbinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 17 tam orta məktəbin komandası, hər komandanın tərkibində isə 4 oğlan olmaqla, 68 idmançı iştirak edib.

Beynəlxalq Atletika Federasiyasının qaydalarına uyğun keçirilən yarışda 100 metr məsafədə 10 nömrəli tam orta məktəbin şagirdi Fərid Əsgərli, 200 metr məsafədə 11 nömrəli tam orta məktəbin şagirdi Murad Rəhimov, 400 metr məsafədə 10 nömrəli tam orta məktəbin şagirdi Nihal İmanov, 800 metr məsafədə isə 10 nömrəli tam orta məktəbin şagirdi İsmayıl Abbaslı birinci yerlərə layiq görülüblər.

Komanda hesabında 10 nömrəli tam orta məktəbin komandası birinci, 11 nömrəli tam orta məktəbin komandası ikinci, 13 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Qalib komanda və idmançılara təşkilatçıların diplomları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

*Gömrük nəzarəti zamanı narkotik vasitələrin, odlu silahların, partlayıcı qurğuların və müxtəlif qaçaqmalçılıq predmetlərinin aşkar edilməsində kinoloji xidmətin fəaliyyətindən geniş istifadə olunur. Bu məqsədlə muxtar respublika gömrük orqanlarında xidməti itlərin təlimi və xüsusi hazırlığının təşkili diqqətdə saxlanılır.*

## Gömrük orqanlarında kinoloji xidmətin keyfiyyəti artırılır





Qeyd edək ki, əvvəllər sərhəd-keçid məntəqələrinin hər birində instruktor-kinoloqlar fəaliyyət göstərirdisə, indi Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin ayrıca Kinoloji şöbəsi və Kinoloji mərkəzi vardır. Xidməti itlərin təlimi, yetişdirilməsi, kinoloqların seçilməsi, öyrədilməsi, xidməti itlərə baytarlıq nəzarətinin təşkili Naxçıvan Şəhər Gömrük İdarəsinin ərazisindəki Kinoloji mərkəzdə aparılır.

Muxtar respublikamızda ilk dəfə olaraq bu mərkəzdə xidməti itlərdən balaların alınması və yetişdirilməsi işi həyata keçirilir. Əgər əvvəllər gömrük orqanları üçün xaricdən xidməti itlərin alınmasına külli miqdarda vəsait sərf olunurdusa, indi buna ehtiyac yoxdur. Mərkəzdə nəinki gömrük işi sahəsində, digər sahələrdə də xidməti itlərin yetişdirilməsi üçün hər cür imkanlar yaradılıb.

Mərkəzdə 10 istiqamət üzrə – narkotika, partlayıcı maddə, silah-sursat, tütün məmulatları, valyuta, sağ qalmış və ya ölmüş insanın axtarışı üzrə xidməti itlər, həmçinin xüsusi əməliyyat, asayiş-patrul və iz-təqib itləri yetişdirilir. Burada müxtəlif təyinatlar üzrə dünyada özünü doğrultmuş "Belçika malinuası" da deyilən Belçika çoban iti və Spaniel kimi it cinsləri vardır. İnstruktor-kinoloqlar həftəlik iş qrafikinə uyğun bölünərək muxtar respublikanın sərhəd-keçid məntəqələrində xidmət aparırlar.

Komitə tərəfindən kinoloqların hazırlıq səviyyəsi və xidməti itlərin axtarış qabiliyyətinin artırılması kimi məsələlər diqqətdə saxlanılır, hər rübdə bir dəfə instruktor-kinoloqların təlimləri təşkil olunur. Cari ildəki ilk təlimdə gömrük orqanlarından 8, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasından 2 kinoloq olmaqla, ümumilikdə, 10 kinoloq öz xidməti iti ilə iştirak edib. Xidməti itlərin 4-ü narkotik vasitələrin, 2-si odlu silahların, 1-i tütün məmulatlarının, 1-i valyutanın axtarışı, 2-si isə silahlı şəxsin zərərsizləşdirilməsi və cinayətkarın tutulması üzrə yetişdirilmiş cins itlər olub. Təlimdə əvvəlcə xidməti itlərin "gözlə" komandası veriləndən sonra növbəti komandaya qədər olduqları yerdə qalmaları yoxlanılıb. Xidməti itlər sınaqdan uğurla çıxıb. İtaət hərəkətləri çərçivəsində xidməti itlər digər komandaları da dəqiq və qüsursuz yerinə yetiriblər. Kinoloji şöbənin balansında olan itlərdən alınmış və xidmətə yararlılığı müəyyənləşdirilmiş bala itlərin təliminin bəzi mərhələlərinin nümayişi də maraqla qarşılanıb.

Təlim çərçivəsində narkotik axtarışı üzrə yetişdirilmiş itlərin qapalı məkanlarda, eləcə də gömrük anbarlarında axtarış qabiliyyətləri yoxlanılıb. "Super burun" adlandırılan dedektor itlər əvvəlcədən müxtəlif yerlərdə gizlədilmiş narkotik vasitəni, odlu silahı, siqaret və valyutanı qısa vaxtda və məharətlə aşkarlayıblar. Məqsədinə çatmış xidməti itin reaksiyaya uyğun oturub səssiz qalması və kinoloqun əlini qaldırması axtarışın uğurla nəticələndiyinin göstəricisi olub.

Gömrük orqanlarının Kinoloji mərkəzində "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası üçün silahlı şəxsin və hadisə yerindən qaçan cinayətkarın zərərsizləşdirilməsi üzrə yetişdirilən Belçika qurdu irqindən olan xüsusi əməliyyat itlərinin də hazırlıq səviyyəsi təqdirəlayiq sayılıb. Əsas məqsəd silahlı şəxsin zərərsizləşdirilməsindən ibarət olduğundan təlimlər üç istiqamət üzrə xüsusi ssenari əsasında təşkil edilib. Kinoloqlar xidməti itlərin köməyi ilə şərti qaydada müəyyənləşdirilmiş silahlı şəxsi qısa vaxt ərzində zərərsizləşdirməyə müvəffəq olublar. Qeyd edək ki, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının iki kinoloqu mart ayının əvvəllərindən təlimlərə cəlb edilib.

Yeri gəlmişkən, bu istiqamət üzrə xidməti itlər elə yetişdirilir ki, onlar silah-sursat və partlayış səslərindən, yanğından qorxmur, xüsusi əməliyyat şəraitinə adaptasiya olunurlar. Xüsusi əməliyyat iti bir anda silahlı şəxsin üstünə cumaraq onun qolundan yapışır və silahdan istifadəsini çətinləşdirir.

Təlimin yekunu olaraq kinoloqların hazırlıq səviyyəsi yüksək qiymətləndirilib, gömrük orqanlarında kinoloji işin keyfiyyətinin daha da artırılması, müxtəlif istiqamətlər üzrə yeni xidməti itlərin hazırlanması qərara alınıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 271